# Nizami Gəncəvi yaradıcılığı dini-fəlsəfi-irfani kontekstdə

**Vüqar Əhməd**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: vuqar.ehmed.63@mail.ru

**Annotasiya**. Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur. Nizami Gəncəvi bütün yaradıcılığı boyu lirik şeirlər yazmış və sonralar poemalarında irəli sürdüyü mütərəqqi ictimai-fəlsəfi fikirlərini ilk dəfə həmin şeirlərində ifadə etmişdir.
Onun Müqəddəs Qurandan bəhrələnən yaradıcılığı insanı gözəl əxlaqa, vətəni sevməyə, Uca Allahın hidayət etdiyi yolla yaşamağa, mərdi-mərdanə ömür sürməyə, elm şərbəti içməyə, Allah, Peyğəmbər, vətən, torpaq, xalq, millət eşqi ilə yaşamağa səsləyir. Nizami Gəncəvi müsəlman Şərq ədəbiyyatında elə bir iz buraxmışdır ki, yüzlərlə şair onum təsirilə yazıb-yaratmışlar. Bu məsnəvilərdən ən məşhurları: Əmir Xosrov Dəhləvinin "Mətləül-Ənvar", Dərviş Əşrəf Marağayinin "Minhəcül-Əbrar", Haşimi Kirmaninin "Məzhərül-Asar", Ürfi Şirazinin "Məcməül-Əbkar", Məlik Quminin "Mənbəül-Ənvar", İtabi Təkləvinin "Mənzəül-əbrar", Qasım Əsirinin "Riyazül-ənvar", Ədhəminin "Rəfiqüs-Saligin", Zülalinin "Hüsni-Kəlusuz", Molla Şeydanın "Dövləti-bidar"ı belə əsərlərdəndir. Lakin Nizami ədəbi məktəbində yetişmiş sənətkarlar bunlarla da bitmir. Onların sayı minlərlədir ki, burada onların adını sadalamaq müşküldür.
Nizamiyə görə, doğru həyat düşüncəsi və yolu ancaq İslamdır. Yəni Uca Allaha təslim olmaqdır. Uca Allahın yaratdığı insanların İslamdan başqa həyat tərzi olmamalıdır. İnsanlığa doğru yol göstərmək üçün göndərilmiş peyğəmbərlər hər zaman İslam həyat tərzini təbliğ etmişlər.
**Açar sözlər:** Nizami Gəncəvi, Qurani-Kərim, ayə, qəzəl, məsnəvi

**Məqalə tarixçəsi:** göndərilib – 08.11.2021; qəbul edilib – 19.11.2021

# Nizami Ganjavi's creative work in the religious-philosophical-irfan context

**Vugar Ahmed**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan
E-mail: vuqar.ehmed.63@mail.ru

**Abstract.** Nizami Ganjavi enriched Eastern literary thinking with scientific and philosophical ideas and raised his poetry to unprecedented heights with his universal and wonderful poetic power. Famous "Khamsa" of the poet-thinker, standing on the highest top searching for the spiritual riches of mankind and has occupied the worthy place among the masterpieces of world literature. During his creativity, Nizami Ganjavi wrote lyric poems, and later, expressed his progressive social and philosophical ideas in his poetry for the first time.
His work, based on the Holy Quran, calls people to beautiful morality, to love motherland, to live on the way guided by the Almighty, to live bravely, drink of knowledge sherbet and live with love to Almighty, the Prophet, Motherland, land, people and the nation. Nizami Ganjavi left such sign in Muslim Eastern literature, that hundreds of Iranian and Indian poets wrote and create under his influence. The most famous of these masnavis are: Creative works: "Matlaul-Anvar" by Amir Khosrov Dehlavi, "Minhajul-Abrar" by Dervish Ashraf Maragai, "Mazhar-ul-Asar" by Hashimi Kirmani, "Majmaul-Abkar" by Urfi Shirazi, "Manbaul-Anwar" by Malik Qumy, "Manzaul Abrar" by ItabyTaklawi, "Riyazul-Anvar" by Qasim Asiri, "Rafigus-Saligin" by Adhamy, "Husni-Kalusuz" by Zulaly, Mulla Sheid "Dovlati-Bidar" by Mulla Sheida. But the creators, who grew up in the literary school of Nizami, are not only them. There are thousands of them, and it is difficult to enumerate all of them here.
According to Nizami, the only way of life is Islam. Devote yourself to the Almighty. People created by the Almighty should have no other way of life, than Islam. The prophets sent to lead humanity have always preached the Islamic way of life.
**Keywords:** Nizami Ganjavi, Holy Quran, verse, ghazal, masnavi (rhyme with two lines)

**Article history:** received – 08.11.2021; accepted – 19.11.2021





## Giriş / *Introduction*

Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur "Xəmsə"si dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur və insanlığın mənəvi sərvət axtarışının zirvəsində dayanır. Nizami Gəncəvi bütün yaradıcılığı boyu lirik şeirlər yazmış və sonralar poemalarında irəli sürdüyü mütərəqqi ictimai-fəlsəfi fikirlərini ilk dəfə həmin şeirlərində ifadə etmişdir. Nizami Gəncəvi Yaxın Şərq xalqlarının ədəbiyyatına son dərəcə yüksək humanist ideyalar və yeni sənətkarlıq nailiyyətləri gətirmiş, Şərq ədəbiyyatına yeni bir istiqamət vermiş, bədii yaradıcılığı həmişə həyatla əlaqələndirməyə çalışmışdır.

## Əsas hissə / *Main Part*

Nizami yaradıcılığının dünya söz sənəti müstəvisində yerini dəqiq müəyyən edən akademik İsa Həbibbəyli yazır: "Yazılı ədəbiyyat Azərbaycanda XII əsrdə özünün ən yüksək zirvəsinə çatmışdır. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin ölməz "Xəmsə"si geniş mənada türk-müsəlman dünyası ədəbiyyatının apogeyini təşkil edir. Nizami Gəncəvinin zəngin yaradıcılığını nəzərə almaqla heç tərəddüd etmədən demək olar ki, ümumşərq miqyasında farsdilli poeziya üzrə rəqabət mühitində Azərbaycan birincilik qazanmışdır. XII əsrdə formalaşmış Nizami ədəbi məktəbi ənənələri uzun əsrlər türk-müsəlman dünyası ədəbiyyatının inkişafına qüvvətli təsir göstərmişdir" [6, s.168].

"Nizami Gəncəvi lap çoxdan yalnız Azərbaycanın övladı olmaqdan çıxıb. Onun ədəbi yadigarları bəşəriyyətin ən qiymətli sərvətləri xəzinəsinə daxil olub, özü isə bütün xalqların, insanlığın övladı olmaq mərtəbəsinə ucalıb" [14, s.7].

İlk rüşeymlərini tarixdən öncəki dövrdən götürən Azərbaycan ədəbiyyatı olduqca zəngin ənənələrə söykənir. İslam dini yayılandan sonra isə bu ədəbiyyat müqəddəs Qurani-Kərimin mübarək ayələrinin qiraəti, təcvidi, bəlağəti, ərəb dilinin morfologiyası və sintaksisi olan "sərf və nəhv" elmlərinin təsiri ilə daha da inkişaf etmiş, bədii xüsusiyyətləri, aparıcı ədəbi cərəyanları, fəlsəfi təlimləri ilə öz izahını tapmış, ədəbi yaradıcılığını müəyyən etmiş və ədəbiyyatlar arasındakı əlaqələrin yaranmasına səbəb olmuşdur. Uca yaradanın insanlığa xitabı, hidayət və inayəti olan İslam dininin müqəddəs kitabının milli ədəbiyyatımıza nüfuzedici təsirindən danışarkən filologiya elmləri doktoru Mahirə Quliyeva yazır: "Qurani-Kərimin bəlağəti, məntiqi elmliyi və həmişəyaşarlığı, eləcə də mövzu genişliyi və bu mövzuların əbədi aktuallığı (hekayələr, dəvət, ehkamlar və s.) ədəbiyyatın hər dönəmində zamanla səsləşərək onun ana xəttini təşkil etmişdir. ... Ədəbiyyatın hər bir dönəmində, istər klassik, istərsə də aşıq yaradıcılığında ruhun, xilqətin ən gözəl tərbiyəçisi olan Quranın hikmət, ibrət və nəsihətləri hər dövrün ictimai-siyasi və mədəni durumuna uyğun tərzdə ədəbiyyatın özülünü təşkil etmişdir" [9, s.250].

Deyilənlərdən çıxış edib söyləyə bilərik ki, kimsə İslam Şərqi ədəbiyyatında müqəddəs Qurani-Kərimin müstəsna rol oynadığını təkzib edə bilməz və müsəlman xalqları arasında ədəbi fikrin aparıcılarının vasitəsi ilə olduqca möhkəm sütunları olan bu körpü xalqlar arasında qiyamətə qədər ədəbi əlaqələr yaradacaqdır. Günümüzə qədər mükəmməl inkişaf yolu keçmiş dini-irfani motivlər xalqların mədəni ünsiyyəti ilə qarşılıqlı təmasda və təsirdə daha da cilalanmışdır. Bu proses həm də cürbəcür millətlərdən olan şairlərin bir-birilə məktublaşması, şeirləşməsi ilə baş vermişdir. Bu da öz növbəsində fars şairləri Şeyx Sədi Şirazinin, Ömər Xəyyamın, Rudəkinin, Firdovsinin, Hafiz Şirazinin təkcə fars əqvamında deyil, bütün türk dünyasında, Osmanlı mütəfəkkirləri Mövlanə Cəlaləddin Ruminin, Əhməd Yasəvinin, Yunus Əmrənin bütün Şərq dünyasında tanınmasına, Azərbaycan dühaları Xaqaninin, Nizaminin, Nəsiminin, Xətainin, Füzulinin bütün Şərq dünyasında sevilməsinə gətirib çıxarmışdır. Təsadüfi deyil ki, hind şairi Əmir Xosrov Dəhləvi Azərbaycan şairi Əfzələddin Xaqaniyə nəzirə yazmış, özbək şairi Əlişir Nəvai (1444-1501) Azərbaycan şairi Şeyx Nizami Gəncəvinin "Xəmsə"sinin təsirilə "Xəmsə" bağlamış, "Xəmsə"ni bitirdikdən sonra onun son səhifələrində bir məclis təsvir etmişdir. Məclisin yuxarı hissəsində Əbdürrəhman Cami və Əmir Xosrov dayanmış, daha yuxarıda və mərkəzində Nizami Gəncəvi qərar tutmuşdur. Onların arxasında isə Firdovsi, Ənvəri, Xaqani, Həsən Dəhləvi, Ünsüri və başqa Şərq şairləri təsvir edilmişdir. Bununla da Nəvai orta əsrlərdə Şərq poeziyasının tarixində Nizaminin ən uca mərtəbədə olduğunu göstərmişdir.

Şeyx Nizami ondan sonra poeziya meydanına gələn bütün fars və türk dilli şairlərin ustadı sayılır. Təsadüfi deyil ki, Anadolunun ən məşhur şairlərindən olan Ziya paşa Nizaminin misilsiz bir şair olduğunu çox zəngin şəkildə nəzmə çəkmişdir:

*Təqidi buraxsa gər Nizami,*
*Ecazə yetər idi kəlami.*
*Bir dürr yenə leyk o piri-fani,*
*Yox "Xəmsə"sinə nəziri-sani.*
*Tənzirə ani Əmiri-Xosrov,*
*Etmiş idi ki, gərçə hümməti-nov.*
*Təbə bihudə verdi-rəncə,*
*Qəndə Dəhli, qəndə Gəncə.*
*Aləmdə durur ikən Nizami,*
*Aqil eyləməz bu iltizami.* [19, s.347]

Nizami Gəncəvi müsəlman Şərq ədəbiyyatında elə bir iz buraxmışdır ki, yüzlərlə İran və Hindistan şairləri onun təsirilə yazıb-yaratmışlar. Bu məsnəvilərdən ən məşhurları: Əmir Xosrov Dəhləvinin "Mətləül-Ənvar", Dərviş Əşrəf Marağayinin "Minhəcül-Əbrar", Haşimi Kirmaninin "Məzhərül-Asar", Ürfi Şirazinin "Məcməül-Əbkar", Məlik Quminin "Mənbəül-Ənvar", İtabi Təkləvinin "Mənzəül-əbrar", Qasım Əsirinin "Riyazül-ənvar", Ədhəminin "Rəfiqüs-Saligin", Zülalinin "Hüsni-Kəlusuz", Molla Şeydanın "Dövləti-bidar" əsərləridir. Lakin Nizami ədəbi məktəbində yetişmiş sənətkarlar bunlarla da bitmir. Onların sayı minlərlədir ki, burada onların adını sadalamaq müşküldür.

Nizaminin türk ardıcılı Əlişir Nəvai: "Nizami ustadımdır. O, mənə ilham verir, ona səcdə edirəm, o pirdir, Xızrdır", – demişdir.

Bəs, görəsən, niyə müsəlman Şərqinin bu böyük şeir ustaları şeyx Nizamini özünə pir sayır?

Akademik Bəkir Nəbiyev yazırdı: "Minacat, nət və tövhidlər bədii yaradıcılıq sahəsində fundamental bir niyyətin icrasına başlamaq ərəfəsində Allahın şəninə təriflər deməklə öz nəcib, müqəddəs borcunu yerinə yetirmək, bu yolda Yaradandan kömək diləmək məqsədini daşımışdır.

Əvvəllər də bizdə bu sahədə qələm çalmış şairlər olduğuna baxmayaraq, məsələni yerli-yataqlı qoyub fundamental tərzdə həll etmək baxımından ədəbiyyatımızda birincilik çələngi Nizami Gəncəviyə məxsusdur. O, hələ öz "Xəmsə"sinin ilk bahar qaranquşu olan "Sirlər xəzinəsi"ndəki





"Allaha xitab"ında ... bizə vəsiyyət edirdi ki, hər birimiz bütün nəcib, xeyirxah, alicənab işlərimizi hökmən Allahın adı ilə başlayıb, elə Onun əzəli və əbədi adı ilə də qurtaraq:

*Şərəfli, ədalətli Tanrının adı ki, var,*
*Hikmət xəzinəsini açan açardır, açar.*
*Hər sözün, düşüncənin Odur əvvəli, sonu,*
*Nə söyləsən Tanrının adıyla qurtar onu.*

Bu əhdinə sadiq qalan şair ikinci böyük məsnəvisi olan "Xosrov və Şirin"i də Allaha ünvanladığı beytlə başlayır:

*Kömək qapısını aç, ey Yaradan!*
*Göstər Nizamiyə düz yolu hər an!* [2, s.26-27]

"Peyğəmbərin şərəfli adını yazıda əks etdirən hərflərin özü də şeirimizdə onu tərənnüm etməyin vasitələrindən biri kimi uzun müddət şairlərimizi məşğul etmişdir. Bu işdə də bizə məlum olan əsərlərə əsasən desək, birincilik çələngi yenə dahi Nizamiyə məxsusdur. O hələ "Sirlər xəzinəsi"ndə "Sonuncu Peyğəmbərin şərəfinə" adlı xüsusi bir bölmə seçmiş və onu bu sözlərlə başlamışdır:

*Varlığın lövhəsinə ilk söz yazanda qələm –*
*Əhmədin "əlif"ini yazıbdır onda qələm.*
*"Əlif" "hey"i mülkünə hakim edəndən bəri,*
*"Dal" onun boyunbağı, "mim" də ki, bir kəməri.*
*Sonuncu peyğəmbərlik verildi Məhəmmədə.*

Hamı bilir ki, Peyğəmbərimizin adının oxunuşu da Əhməddir və o, vaxtilə xristianların kitabında məhz bu şəkildə yazılmışdır" [2, s.28].

Uca Allah müqəddəs Qurani-Kərimin 68-ci surəsi "Nun və ya əl-Qələm" surəsinin 1-3-cü ayələrində buyurur: *"And olsun qələmə (mələklərin) yazdıqlarına (yaxud lövhi-məhfuzda yazılanlara ki). Sən Ya Rəsulum, Rəbbinin neməti sayəsində divanə deyilsən. Və həqiqətən, Səni minnətsiz (tükənmək bilməyən mükafat gözləyir".*

Göründüyü kimi, bu mübarək ayələr bilavasitə sevgili Peyğəmbərimiz Həzrət Məhəmmədlə (s.ə.s) bağlıdır və şübhəsiz ki, Nizami Gəncəvi "Varlığın lövhəsinə ilk söz yazanda qələm, Əhmədin "əlif"ini yazıbdır onda qələm,– deyərkən bu mübarək ayələri nəzərdə tutur, çünki bir çox Quran təfsirçilərinin və ilahiyyatçılarının şərhinə görə Uca Allah varlığı, həyatı Həzrət Məhəmmədin (s.ə.s) eşqinə yaratmış və Ona; "Sən olmasaydın, həyatı yaratmazdım", – demişdi.

Həzrət Muhəmməd əleyhəssalatu vəssəlləm Uca Allahın yaratdıqları arasında ən çox sevdiyi xilqətidir. Uca Allah müqəddəs Qurani-Kərimin 33-cü surəsi "əl-Əzhab" (dəstələr) surəsinin 56-cı ayəsində buyurur: *"Həqiqətən Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər (xeyir-dua verirlər). Ey iman gətirənlər! Siz də ona salavat göndərib (onun üçün salavat deyib) layiqincə salamlayın! (Allahuməssəlli əla Muhəmmədin və ali Muhəmməd; "Əssalamu ələykə əyu hənnəbiyu və rəhmətullahi və bərəkatuh, – deyin!").*

Uca Allah Həzrət Məhəmmədə (s.ə.v) intəhasız eşqinin təsdiqi olaraq müqəddəs Qurani-Kərimin 7-ci surəsi "əl-Əraf" surəsinin 157-ci ayəsində buyurur:

*"O kəslər ki, əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri Rəsula-Ummu (heç kəsin yanında oxuyub elm öyrənməmiş və ya məkkəli) Peyğəmbərə tabe olurlar. (O Peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar, napak şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstündəki buxovları açar (şəriətin çətin hökmlərini götürər. Ona (o Peyğəmbərə) iman gətirən, yardım göstərən və onunla (Quranın) ardınca gedənlər məhz onlar nicat tapanlardır".*

Nizami Gəncəvi də Allahın Rəsulunu (s.ə.s) çox sevmiş, bütün əsərlərində onu mədh etmiş və bütün əsərlərində olduğu kimi "İskəndərnamə"sinin Həzrət Məhəmmədə (s.ə.s) həsr etdiyi "Sonuncu Peyğəmbərin tərifi" bölməsində də bunun olduqca nəfis şəkildə poetik təsdiqini vermişdir:

*Nizami bu uca dərgahda ancaq,*
*Ulu Mustafanı şəfi tutacaq.*
*Möhkəm hökmləri xalqa çatdıran,*
*Seçilmiş elçidir Ulu Tanrıdan.*
*Ən dəyərlisidir bütün bəşərin.*
*Əzəldən əbədə bütün yaranış,*
*Məhəmməd adından almışdır naxış.*

Uca Allah müqəddəs Qurani-Kərimin 59-cu surəsi "əl-Həşr" ("Toplanma") surəsinin 21-24-cü ayələrində buyurur: *"Əgər Biz Quranı bir dağa nazil etsəydik, mütləq onun (dağın) Allah qorxusundan zəlil olub kiçildiyini və parçalandığını görərdik. Və bu məsəlləri çəkirik ki, bəlkə fikirləşələr. O, Özündən başqa heç bir tanrı olmayan, qeybi və aşkarı (hər şüur sahibinin zahiri və batini hissiyyatından gizli və aşkar olanı, yaxud hələ mövcud olmayan və artıq mövcud olan hər şeyi) bilən Allahdır. O, bu dünyada hamını, axirət dünyasında isə yalnız möminləri bağışlayan və mehribandır. O, Özündən başqa, heç bir tanrı olmayan, bütün məxluqatın ixtiyar sahibi, müqəddəs, pak olan, bəndələrinə salamatlıq, əmin-amanlıq bəxş edən, hər şeydən göz-qulaq olub onu qoruyan, yenilməz qüdrət, qüvvət sahibi, hamını istədiyi hər hansı bir şeyə məcbur etməyə qadir olan, hər şeydən böyük və hər şeyin fövqündə olan Allahdır. O, Məlikdir (varlıq aləminin Sultanı və Hökmdarıdır), Qüddüsdur (Müqəddəsdir. Hər hansı bir eybdən, nöqsandan pak və uzaqdır. Salamdır (zatı eybdən, sifətləri nöqsandan, işləri şərdən uzaq və salamatdır. Mömindir (Öz tövhidini bəyan edəndir. Öz zatının və sifətlərinin həqiqətinə imanı olan, hər zülmdən və pislikdən amanda saxlayandır). Müheymindir (Əmindir, hər şeyə hakim və üstündür, bütün varlığı qoruyan və hər şeyə nəzarət edəndir). Əzizdir (oxşarsız və bənzərsizdir, məğlubedilməz, qalib və izzət bəxş edəndir). Cabbardır (əzəmətli, şan-şövkət sahibi, mövcudatı islah edən, hər şey üzərində qəti iradəyə malik olandır). Mütəkəbbirdir (təzim olmağa layiq, batini və aşkar böyüklük sahibidir). Allah müşriklərin Ona qoşduqları şəriklərdən Ucadır. O, (hər şeyi təqdir və ölçü əsasında) yaradan, (bir-birindən fərqli, lakin yaradılışın kamilliyi baxımından isə bir-birinin eyni olan varlıqları) yoxdan var edən (hər şeyə müxtəlif şəkillərdə) surətlər bəxş edən Allahdır. Ən gözəl adlar Ona məxsusdur. Göylərdə və yerdə olan hər bir şey (dillə və hal ilə) Onu zikr edirlər. O, qüdrət və hikmət sahibidir".*

Uca Allah eyni zamanda müqəddəs Qurani-Kərimin "əl-Bəqərə" surəsinin 255-ci "Ayətül-kürsü" deyilən ayəsində buyurur:

*"Allahdan başqa İlah yoxdur. Zatı və kamal sifətləri ilə hər şeyə qadir olub bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan əbədi, əzəli varlıq odur. O, nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa, hamısı Onundur. Allahın izni olmadan qiyamətdə Onun yanında, hüzurunda kim şəfaət, Bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş edə bilər. O, bütün yaranmışların keçmişini və gələcəyini, bütün olmuş və olacaq şeyləri bilir. Onlar, yaranmışlar, Allahın elmindən, Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü, elmi, qüdrət və səltənəti, göyləri və yeri ehtiva etmişdir. Bunları müşahidə etmək Onun üçün heç də çətin deyildir. Ən uca ən böyük varlıq da Odur".*

Nizami Gəncəvi də haqlı olaraq həyatda mövcud olan bütün elmləri, bilgiləri, hikmətləri, gözəllikləri Uca Allahla bağlayır və buna "Yeddi gözəl"də dəruni misralarla fəlsəfi şərh verir:

*İzlədim yolunu səyyarələrin,*
*Nə ki, elmlər var gizli və dərin.*
*Oxudum, xəbərdar oldum da vardım,*
*Varlıqlar sirrini yer-yer axtardım.*





*Səni tapan kimi yumdum kitabı,*
*Hamının Sənədir gördüm xitabı.*

Nizami Gəncəvi Uca Allahın yoxluq içində var olduğunu və kainatı yoxdan xəlq etdiyini, həyatın, varlığın, mövcudatın yalnız onun iradəsi ilə hərəkət etdiyini, eyni zamanda müqəddəs Qurani-Kərimin 24-cü surəsi "ən-Nur" surəsinin 35-ci ayəsində buyrulduğu kimi "nur üstündə nur olduğunu və istədiklərini Öz nuruna qovuşdurduğunu", "Leyli və Məcnun" dastanında çox gözəl şəkildə vurğulayır, eyni zamanda nur xəzinəsini onun üzünə açmasına dua edir:

*Ey mənim ağlıma mənalar verən,*
*Mən axtarışçıyam, sən yol göstərən.*
*Yollarım qorxulu olsa da bu dəm,*
*Sən ki, Rəhbərimsən, qorxan deyiləm.*
*Tozlara dönsə də bu aciz bədən,*
*Hər yerdə, hər zaman məbudum Sənsən.*
*Böyük dərgahına girdiyim zaman,*
*Neylər bu dərgahdan qovulmuş şeytan?*
*Gəmim qərq olmamış qanlı sularda,*
*Rəhm et, əlimdən tut, qalmayım darda.*
*Aç mənim üzümə nur xəzinəsi,*
*Zülmlər içindən xilas et məni!*

*Müqayisə üçün baxaq: "Allah göylərin və yerin nurudur. Onun nuru içində bir çıraq olan taxçaya bənzər: Taxçadakı o çıraq bir qəndilin içindədir, o qəndil isə sanki parlaq bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə olan mübarək bir zeytun ağacından yandırılır. O, elə bir ağacdır ki, onun yağı özünə od toxunmasa da sanki işıq saçır. O, nur üstündə nurdur. Allah dilədiyini Öz nuruna qovuşdurur. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir".*

Məlumdur ki, klassiklərimiz öz əsərlərinin külliyyatını, əsasən, divan ənənəsi üzərində qurmuşlar. Divan ənənəsini rövnəqləndirən isə dini poeziya idi. Allahın adı ilə başlanğıc, Tövhid – Allahın birliyi və şəriksizliyi barədə şeir parçası, Minacat – Allaha xitab və dua, Nət – Həzrət peyğəmbərin tərifi, Meracnamə – Həzrət Rəsullahın meracının təsviri, Möcizat – Peyğəmbərin möcüzələri, Mədhi-Çahar yar – Dörd xəlifənin tərifi də bu ənənədən gələn başlanğıclardır.

Burada dörd xəlifə deyiləndə, İslamın ilk xəlifələri, Əbubəkr, Ömər, Osman və Həzrət Əli əleyhəssalam nəzərdə tutulur.

Nizami yazır:

*Əlinin eşqində sabitqədəməm,*
*Ömər sevgisindən uzaq deyiləm.*
*Hər iki nur ilə nurlanır dimaq:*
*Əbubəkr bir şamdır, Osman bir çıraq.*

"Klassiklərimizin Allaha ardıcıl olaraq izlədikləri əsas mövzulardan biri tövhiddir. Bu baxımdan çox təbiidir ki, Nizami "Xosrov və Şirin" poemasında bu məsələyə xüsusi parça həsr etmiş və ona izlədiyi məqsədəuyğun olaraq belə aydın və konkret bir ad vermişdi: "Yaradanın təkliyi haqqında". Burada Qurani-Kərimin 112-ci, "İxlas" surəsinin *"Qulhuvəllahu əhəd. Allahussəməd. Ləm yəlid və ləm yuləd və ləm yəkun lahu kufuvən əhəd"* ayələrindəki hökmlər çox incəliklə izlənir, bu poetik təqdimatda isə tam təsdiq olunur:

*Dilimdə hər şeydən uca bir ad var,*
*Bu ada bağlıdır bütün varlıqlar,*
*Təkdir, misilsizdir, - kim deyil agah?*
*Ulular deyirlər Ona tək Allah.*

*...İdrakın çatırsa vahid Allaha,*
*"Nədir? Və necədir?" soruşma daha!* [2, s.27]

"O söz yaradan sənətkara min afərin ki, hər bir arpadan bir cövhər yaradır" [17, s.26].

Nizami söz ustasıdır, sözün dəyərini, qiymətini çox yaxşı bilir, o sözdən möhtəşəm abidələr inşa etmişdir, özü də elə abidələr ki, müqəddəs Qurani-Kərimin hikmət möcüzələrindən, bəlağətindən, bədiiyyatından, söz ləfzi gözəlliklərindən, məna incəliklərindən qaynaqlanmışdır:

"Yaradıcılığına böyük hörmət və sevgiylə yanaşdığımız, hər sözündən təskinlik üçün özümüzə ibrət götürdüyümüz şairin "Sirlər xəzinəsi" məsnəvisi digər əsərlərindən fərqli olaraq, Quran üslubuna uyğun şəkildə yazılmışdır. Əvvəlcə bir mətləb nəzərə çatdırılır, sonra isə ona uyğun ibrət, nəsihət, hikmət dolu hekayə və təmsil işlənir. Təbiidir ki, sonda müvafiq ibrətamiz nəticələr çıxarılır. Bu məsnəviyə qayıdışımızın ikinci səbəbi əsərdə Allaha xas atributların təzadlı şəkildə işlədilməsidir. Yox var, varı yox etməsi əbədilik və fanilik anlamlarıdır.

"Sirlər xəzinəsi"ndə "yox", "var", "fani", "baqi" kimi ifadələr misra daxilində təzadlı şəkildə işlədilərək Allaha xas atribut və substansiyanı qabarıq şəkildə oxucusuna çatdırır. "Rəhman" surəsi 26-27-ci ayələrdə deyilir: *"(Yer) üzündə hər kəs fanidir (ölümə məhkumdur). Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir".*

Ayənin məzmunu Nizami şeirində öz əksini bu şəkildə tapıb:

*Biz hamımız faniyik, həmişə baqi olan Sənsən,*
*Müqəddəs uca məmləkət yalnız Sənindir.*

Və ya:

*Ey əzəldən bizlər olmadıqda belə var olan,*
*Ey bizlər fani olduqdan sonra da əbədi yaşayan.*

Torpaqdan yaranan insan sonda yenə torpağa gedər, yəni kimsə özüylə bir şey aparmaz:

*Bu torpaqda yaşayanların hamısı torpaq olublar,*
*Torpaq nə bilir ki, bu torpaqda nə var?* [8, s.20]

Əgər müqəddəs Qurani-Kərimin 55-ci surəsi "ər-Rəhman" surəsinin "Xələqəl insana min salsalin kəl fəxxar" "Biz insanı toxunduqda saxsı qab kimi səs çıxaran quru palçıqdan yaratdıq", – 14-cü ayəsinə nəzər yetirsək, Nizami Gəncəvinin bu misralarının bu ayənin ilk insan və ilk peyğəmbər olan Həzrət Adəm əleyhəssalamın yaradılışı ilə bağlı müqəddəs Qurani-Kərimdəki bu mənadakı ayələrin Nizami Gəncəvinin bu misralarında poetik təsdiqini tapdığını görərik.

Dahi şair "hamısı torpaq olublar" dedikdə isə həm elə müqəddəs Qurani-Kərimin bir sıra ayələrinə uyğun olaraq insan ölərkən torpağa getdiyini və zaman-zaman çürüyüb torpağa qarışdığını, eyni zamanda Həzrət Adəm əleyhəssalamdan sonra dünyaya gələn bütün insanların ana bətnində qan laxtasından yarandığını nəzərdə tutur. Çünki həmin qan laxtasında torpaqda olan bütün elementlər mövcuddur. Belə ki, Uca Allah müqəddəs Qurani-Kərimin 96-cı surəsi "Ələq" (qan laxtası) surəsinin ilk beş ayəsində buyurur: *"Oxu! Yaradan Rəbbinin adıyla oxu! O Rəbbin ki, insanı bir qətrə qan laxtasından yaratdı! O Rəbbin ki, əzəmət, kərəm sahibidir. O, insana qələmlə yazmağı öyrətdi. O, insana bilmədiklərini öyrətdi."*

Onu da qeyd edək ki, bu sevgili Peyğəmbərimizə (s.ə.s) nazil olan ilk ayələrdir və peyğəmbərlik də Ona Uca Allah tərəfindən həmin zamanda verilmişdir.

"Qan laxtası" ilə bağlı bir məsələ də həqiqətdir ki, müqəddəs Qurani-Kərimdə 1450 il bundan qabaq vurğulanan rüşeymin qan laxtasından yaranması məsələsini embriologiya elmi yalnız 1973-cü ildə kəşf etmişdir. Bu da şübhəsiz ki, müqəddəs Qurani-Kərimin hikmət və möcüzələrini bəyan etməklə yanaşı, Onun insan kəlamı deyil, Allah kəlamı olduğunu açıq-aydın sübuta yetirir.





Sevgili Peyğəmbərimiz Həzrət Məhəmməd (s.ə.s) mübarək hədisi-şəriflərinin birində buyurur: "Namaz dinin dirəyidir".

"Həzrət Nizami namazın merac nemətini belə dəyərləndirmişdir: "Namaz Uca Allahın (c.c) xüsusi nemətidir", "Namaz ümmət üçün xilas fərmanıdır", "Namaz həqiqi məhəbbət xəzinəsidir", "Namaz insanlığın sevinc müjdəsidir", "Namaz cəhənnəmdən azad olmaq vəsiləsidir" [18, s.744-745].

Bilirik ki, sevgili Peyğəmbərimiz (s.ə.s) "Meraca" qalxmışdır. Bu zaman Uca Allah onun üçün zamanı kəsmiş və vəhy mələyi Cənabi-Cəbrail Peyğəmbərimizi maddiyyat içərisində mövcud olmayan bir məkana (əslində o məkan da maddiyyat aləmindəki məkan deyil. Çünki Uca Allah Özü də zamansız və məkansızdır) aparmış, buradan isə Peyğəmbərimiz heç bir yaradılışın qalxa bilmədiyi "Sidrətrətul-Muntəha"ya qalxmış və orada bir çox həqiqətləri görmüşdür.

"Merac" hadisəsi ilə bağlı dahi şairlərimiz Nəsimi, Xətai, Füzuli öz yaradıcılıqlarında bu hadisəyə xüsusi yer ayırmış və fəlsəfi baxışları ilə bu fövqəl hadisəni poetik naxışlarla nümayiş etdirmişlər. Şeyx Nizami Gəncəvinin isə bu mübarək hadisəyə özünəməxsus baxışları vardır ki, nizamişünas Siracəddin Hacı öz kitablarında bu müəzzəm ifadələri diqqət mərkəzinə çəkir: "Həzrət Məhəmməd (s.a.s) merac gecəsi cəhətsizliyi, sonsuzluğu, məkansızlığı, ruhun dinclik sahəsini gördü: aşağı, yuxarı, ön, arxa, sağ, sol bir cəhətə çevrildi, altı cəhət aradan qalxdı, altı cəhət onun önündə nə dil çıxara bilər, həm cəhət, həm də Cahan Ondan qaçarlar, cəhətsiz olanın cəhətdə işi olmaz, bu cəhətdən o pərgar cəhətsiz oldu. Onun nəzəri cəhətin üzünə niqab salmayınca ürəyi təşviş və iztirabdan azad ola bilməzdi, cəhət gözdən itdi, cəhətlərin bazarını pozdu, üst və alt zəhmətindən xilas oldu, orada məkan və zaman yox idi, altı cəhətin zülfünü alnında sındırdı, məkanın üzünə örtük çəkdi, qədimlik üzündən örtüyü açdı, dinclik məkanına daxil oldu" [18, s.749].

Bunu da demək çox vacibdir ki, sevgili Peyğəmbərimiz (s.ə.s) Meraca yuxarıda qeyd olunduğu kimi, zamanın nisbiliyi ilə qalxmışdır ki, müqəddəs Qurani-Kərimdə zamanın nisbi olduğunu bəyan edən bir sıra məlumatlar vardır. Bunlar müqəddəs Quranın 22-ci surəsi "Həcc" surəsinin 47-ci ayəsində, 32-ci surəsi "Səcdə" surəsinin 5-ci ayəsində, 70-ci surəsi "Məaric" surəsinin 4-cü ayəsində öz əksini tapmışdır: "Rəbbinin dərgahında bir gün sizin saydıqlarınızın min ili kimidir!" ("Həcc" surəsi 47-ci ayə).

*"O, göydən yerə qədər bütün işləri idarə edir. Sonra həmin işlər sizin saydığınızın min ilinə bərabər olan bir gündə Ona yüksələr" ("Səcdə" surəsi 5-ci ayə). Mələklər və Ruh (Cəbraii əleyhəssalam) Onun dərgahına əlli min il olan bir gündə qalxarlar" ("Məaric" ("Dərəcələr, yaxud pillələr") surəsi 4-cü ayə).*

Nizami Gəncəvinin bütün yaradıcılığı əslində Uca Allaha və Onun sevdiklərinə ünvanlanmışdır. Dahi şair sufi deyildi, lakin bir sıra tədqiqatçılar onun yaradıcılığında sufizm elementlərinin mövcudluğunu bəyan edirlər. Məsələn, filologiya elmləri doktoru Lalə Əlizadə özünün "Azərbaycan ədəbiyyatında alleqoriya" kitabında yazır: "Dahi mütəfəkkirin söz-sənət ecazları arasında "Yeddi gözəl" əsərindəki eşq və gözəllik anlayışının bədii-estetik təlqini baxımından məhz alleqorik rəmzi-metaforik obrazların timsalında reallaşır, məzmun, ideya və kompozisiyada özünü gerçəkləşdirir. Şairin bütün poemalarında astroloji biliklər nümayiş olunsa da, "Yeddi gözəl" əsəri bu cəhətdən xüsusi mövqeyə malikdir. Planetlər, onların astroloji və mifik xüsusiyyətləri ilə bağlı bədii təsvir, eləcə də mövzu və ideya Nizaminin "Yeddi gözəl" poemasında bütöv bir poetik sistem, ədəbi kompozisiya olaraq ortaya çıxır" [7, s.192].

Azərbaycanda Sovet hökuməti qurulmamışdan öncə Nizami Gəncəvinin "Xəmsə"si o dövrə qədərki ədəbi mühit tərəfindən dəfələrlə tərcümə olunmuşdur. Məsələn, "Məcməüş-şüəra"nın üzvləri Əbdülxalıq Yusif, Əbdülxalıq Cənnəti, Məşədi Azər, Ağadadaş Müniri, Əliabbas Müznib ayrı-ayrı zamanlarda dəfələrlə "Xəmsə"yə müraciət etmiş və fars dilini mükəmməl şəkildə bildikləri üçün lüğətə ehtiyac duymadan müqəddəs Qurani-Kərimdən qaynaqlanan bədii ifadələrə, poetik qəliblərə əsasən, dahi şairin ölməz külliyyatını dilimizə çevirmişlər. Lakin Sovet dönəmində şairlər dövrün tələbindən irəli gələrək klassik Şərq ədəbiyyatına məxsus bədii ifadə vasitələrini, rəmz və simvolları epiqonçuluq adlandırdıqlarından "Xəmsə"də məhz bu poetik vasitələrlə

ifadə olunan dini motivləri çıxarmış, əruz vəzninin bütün qəliblərini pozaraq onu heca vəzninə salmış, bu böyük sənət incisini Nizami Gəncəvi dühasından dəfələrlə aşağı səviyyədə yeni nəslə çatdırmışlar. Orijinala baxdıqca çox böyük bir fərq görünür ki, bu barədə uzun-uzadı danışmaq olar. Dini ehkamlarla bağlı təsəvvürlərin ifadəsi də belə fəqrlər sırasındadır.

Lakin Səməd Vurğunun "Leyli və Məcnun"un tərcüməsində Nizaminin Həzrət Məhəmmədə (s.ə.s) həsr etdiyi "nət"i təqdirəlayiq hesab etmək olar:

*Ey varlıq mülkünə böyük şahsuvar,*
*Əqlin sultanısan zəkavətin var.*
*Sonusan o mürsəl peyğəmbərlərin,*
*Sonun halvasısan duzu əvvəlin.*
*Varlıq bağçasının ilk gülü sənsən,*
*Zamanın sonuncu sərkərdəsisən.* [12]

Nizamiyə görə, doğru həyat düşüncəsi və yolu ancaq İslamdır. Yəni Uca Allaha təslim olmaqdır. Uca Allahın yaratdığı insanların İslamdan başqa həyat tərzi olmamalıdır. İnsanlığa doğru yol göstərmək üçün göndərilmiş peyğəmbərlər hər zaman İslam həyat tərzini təbliğ etmişlər. Onlara inananlar da müsəlmanlar olmuşlar. Kim peyğəmbərlərin gətirdiyi İlahi əmrə, buyruqlara inanırsa, əməl edirsə, o müsəlmandır. Qoy pərdəni bizə çox görməsinlər və olan pərdəni götürməsinlər.

Nizami əsərlərdə pərdə sözündən müxtəlif mənalarda istifadə etmişdir. Lüğəti mənası gizli, bürünmüş, örtülmüş olan pərdə Nizami Gəncəvidə bəzən yuxu mənasında, bəzən Uca Allahın dərkedilməzliyi mənasında işlənmişdir:

*Səninlə aramızda çox mənzillər var,*
*Səni ancaq qüdrətin eylər aşikar.*
*Asimanda və yerdə bütün sirrilər,*
*Bu sirriləri yalnız Yaradan bilər.*
*İnsan düşüncəsinin fövqündədi bu.*
*Lahut aləmində bir bağlı qapı.*
*Kainatın hüdudları çatanda sona,*
*Doğulur ərşidə yeni ulduzlar.*
*Ulduzlar nur verir bütün cahana,*
*Cahan şölələnir yeni niyazla.*
*Yayılır cahana İlahi nəzər,*
*Düşüncə cəhdindən qalmayır əsər.*

Nizami Gəncəvi bu əsərdə Uca Allahın insan şüurunun fövqündə olan sonu, hüdudu olmayan "Lahut aləmi"ndə qərar tutduğunu, kainatın isə sonu və başlanğıcı olduğunu, müqəddəs Qurani-Kərimdə vurğulandığı kimi zaman-zaman genişləndiyini nəzərə gətirir.

Uca Allah müqəddəs Qurani-Kərimin 51-ci surəsi "Zariyat" surəsinin 47-ci ayəsində buyurur: *"Biz göyü qüdrətimizlə yaratdıq və onu genişləndirməliyik".*

XX əsrin əvvəllərinə qədər dünya alimləri kainatın sonsuz ölçülərə malik olduğunu düşünürdülər. Lakin müasir texnologiyalar əsasında aparılan tədqiqat və hesablamalar, daha doğrusu, rus fiziki Aleksandr Fredman və belçikalı astrofizik George Lemaytr kainatın fasiləsiz hərəkət halında olduğunu və genişləndiyini sübuta yetirmişlər.

Uca Allah müqəddəs Qurani-Kərimin "Hud" surəsinin 123-cü ayəsində buyurur: *"Göylərin və Yerin gizli sirləri Allaha məxsusdur (O bütün kainatı ehtiva etmişdir) və varlıq aləmində bütün əmrlər və işlər (səbəb, nəticə, qanun yolu ilə) Ona qayıdacaqdır. Buna görə də yalnız Ona ibadət et və Ona təvəkkül et! Rəbbin nə etdiyinizdən qafil deyildir".*

Nizaminin yuxarıda qeyd olunduğu kimi, bütün külliyyatı müqəddəs Qurani-Kərimlə, İslam dini ilə, Həzrət Məhəmmədlə (s.ə.s) bağlıdır və dahi şair heç vaxt bu qaynaqlardan uzaqlaşmamış öz əsərlərini bu elmi fəhmin işığında ehtiva etmişdir.





Dahi şairin müqəddəs Qurani-Kərimə bağlılığını sübuta yetirməkdən ötrü bir neçə şeir nümunəsinə nəzər salmaq yetər:

*Məsələn, Uca Allah müqəddəs Qurani-Kərimdə buyurur: "Ya əyu əlləzinə əmənustəini bissəbri vəs-salatu inallahə mə-assabirin" (Ey iman gətirənlər! Səbr etmək və namaz qılmaqla Allahdan kömək diləyin! Həqiqətən Allah səbr edənlərlədir). "Əl-Bəqərə" 153-cü ayə.*

Nizami Gəncəvidə:

*Səbr etməklə kişi zindandan çıxar,*
*Səbr ilə açılar bağlı qapılar.*
*İş çətinləşəndə səbr açar bağı,*
*Gecə ardında var sübhün çırağı.* [13, s.111]

Və yaxud

*Ciyər yırtansa da qəmin peykanı,*
*Bununçun yaranmış səbrin qalxanı.* [13, s.111]

Allah-Təala müqəddəs Qurani-Kərimdə buyurur: "Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman (ürəklərdə) bir sevgi yaradacaq. (Allah həm Özü onları dost tutacaq, həm də onların məhəbbətini hamının, o cümlədən möminlərin qəlbinə salacaqdır..." [1]

Nizami Gəncəvidə:

*İdrakı dinləsək, söyləyər o da,*
*Hər şey eşq üstündə durur dünyada.*
*Yaransaydı göylər eşqidən azad,*
*Düşün, olardımı yer üzü abad.* [13, s.89]

*Uca Allah müqəddəs Qurani-Kərimdə buyurur: "Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir" [1].*

Nizami Gəncəvidə:

*Məmləkətin dayağı ədalətdir hər zaman,*
*Ədalətlə nasibin səadətdir hər zaman.* [11, s.13]

Dahi şairin "Xəmsə"sində bütün səmavi dinlərə hörmətlə yanaşıldığını görürük. Şair İslamı bütün dinlərdən üstün tutsa da, müxtəlif din nümayəndələrini hörmətlə yad edir. O, əsərlərində İslamdan öncəki dövrləri təsvir edərkən tək yaradana inamı təbliğ etmiş olur. Bunu "İskəndərnamə"də də aydın görə bilirik. Nizaminin "Xəmsə"sində İslamdan öncəki tarixi hadisələrin təsviri zamanı tanrıçılıq dininə sitayişin izlərini aydın görə bilirik. Şeyx Nizami İslamöncəki dövrü təsvir edərkən də təkallahlığın təbliğatçısı kimi çıxış edir. Lakin Nizami həqiqəti məqsədinə qurban vermir.

Məhəmmədəli Tərbiyət "Danişməndani-Azərbaycan" təzkirəsində Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərindəki Şirini bir xristian qadını kimi qələmə verir: "Nizami Gəncəvinin ikinci məsnəvisi "Xosrov və Şirin" dastanıdır ki, Nizami onu hicri-qəməri 576 (1180)-cı ildə Şəmsəddin Cahan Pəhləvanın adına nəzmə çəkmişdir. Bu dastan Sasanilər sülaləsinin məşhur dastanlarındandır. Xosrov Pərviz Sasani sülaləsinin iyirmi üçüncü padşahı və Şirin isə onun hərəmxanasında olan xristian qadınlarındandır" [10, s.257].

"Bəzi qaynaqlarda yalnış olaraq Şirin "erməni şahzadəsi" adlandırılmışdır. Əslində poemada ərazi adı kimi göstərilmiş "Ərmən" də, "Arran" da Şirinin bibisi Məhun Banunun hakimiyyəti altında olan ölkələrdir. Məhin Banu müqayisə edərkən Xosrovu qədim İran şahı Keyxosrova, özlərini isə türk hökmdarı Əfrasiyaba bənzədir.

Şirin bir türk gözəlidir. Nizami bu əsərdə Şirini dəfələrlə "türk", "türk gözəli" kimi təsvir edir. Onu xristianlığa deyil, tanrıçılıq dininə mənsub olduğunu göstərir" [20, s.30].

Qeyd etməliyik ki, Şeyx Nizaminin yaradıcılığında islamçılıqla yanaşı, türkçülük də mühüm yerlərdən birini tutur. Dahi şair əsərlərini fars dilində yazsa da, türkə olan sevgi, hüsnü-rəğbət hər zaman özünü göstərir:

"Nizami türk sözünü bəzən həqiqi mənada, lakin çox yerdə məcazi mənalarda, məsələn: paklıq, gözəllik, yüksəklik, adil, bilici, qorxmaz, cəngavər və qüvvət simovolu, qəhrəman mənasında işlətmişdir: torke delsetan (ürəkaçan dilbər), torke tənnaz (nazlı dilbər), torke nazənin əndam (gözəl əndamlı dilbər)...

"Həft peykər" dastanında nağıl söyləyən gözəlləri türk adlandırır. Gözəl Rum şahzadəsi onun gözündə Rum soyundan bir türkdür: Torki əz nəsli Rumiyan nəsbeş rumların nəsəbindən bir türk" [3, s.19].

Lakin Şirin və onun bibisinin öz əsli-nəsəbi haqqında söylədikləri bu rəğbət hissindən doğmur, onların milli mənsubiyyətini əks etdirir.

### Nəticə / *Conclusion*

Nizami Gəncəvi müqəddəs Qurani-Kərimin mübarək ayələrindən qaynaqlanaraq bütün əsərlərində istər müəllif sözlərində, istərsə də qəhrəmanların dilindən verdiyi beytlərdə həyatın müxtəlif sahələrinə dair, öz dövrünün ictimai, siyasi, əxlaqi normalarına müvafiq dərin mənalı fikirlər irəli sürmüşdür ki, bu fikirlər dahi şairin dini-irfani-fəlsəfi didaktik təlimini açıq-aydın bəyan edir. Onun müqəddəs Qurandan bəhrələnən yaradıcılığı insanı gözəl əxlaqa, vətəni sevməyə, Uca Allahın hidayət etdiyi yolla yaşamağa, mərdi-mərdanə ömür sürməyə, elm şərbəti içməyə, Allah, Peyğəmbər, vətən, torpaq, xalq, millət eşqi ilə yaşamağa səsləyir. Nizami "Şeyx", "Mürşid", "Ustad", "Xoca" və "Müəllim"dir. O, doqquz əsrə yaxındır ki, bizi öyrədir, bizə dərslər keçir. Bu binası qiyamətə qədər dağılmayacaq əzəli və əbədi eşq məktəbidir.

### Ədəbiyyat / *References*


1. Müqəddəs Qurani-Kərim.
2. Bəkir Nəbiyev. Xəzan vurmasın. Bakı "Elm", 2006.
3. Doktor Cavad Heyət. Azərbaycan Ədəbiyyatına Bir baxış. Bakı: "Yazıçı", 1993.
4. Ə.Səfərli, X.Yusifov. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: "Maarif", 1982.
5. Həcər Babayeva. Üzeyir Hacıbəyovun yaradıcılığında Nizaminin qəzəlləri. "Qobustan" incəsənət toplusu, Azərb. SSR Mədəniyyət Nazirliyinin nəşri. №3, 1985.
6. İsa Həbibbəyli. Azərbaycan Ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı: "Elm", 2019.
7. Lalə Əlizadə Azərbaycan ədəbiyyatında Alleqoriya. Bakı, "Elm və təhsil", 2020. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Elmi məsləhətçi və ön sözün müəllifi AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru Teymur Kərimli.
8. Mahirə Quliyeva. Nizaminin "Sirlər xəzinəsi" və Quran üslubu. Orta əsrlər Azərbaycan Ədəbiyyatı Nizami Gəncəvi "Sirlər xəzinəsi" Müqəddimə, filoloji tərcümə şərh və lüğət: R.Əliyev.
9. Mahirə Quliyeva. Aşıq yaradıcılığı və dastanlar Şərq poetikası və İslami dəyərlər baxımından. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu. Bakı: "Elm və təhsil", 2016.
10. Məhəmməd Tərbiyət. Danişməndani-Azərbaycan. Bakı, 1987.
11. Muxtar Cəfərov, Samir Ramizoğlu. İşıq saçan sözlər. Bakı: "Nurlar", 2009.
12. Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərində sonuncu peyğəmbərin tərifi. Fərrux Rəhimov. //senet.az
13. Nizaminin hikmət və nəsihətləri (tərtib edən və ön sözün müəllifi Vəhdət Sultanzadə). Bakı: "Yazıçı", 1981.







14. R.Hüseynov. Nizaminin dünyası, dünyanın Nizamisi //Nizami və dünya mədəniyyəti (Elmi konfransın materialları). Bakı: "Elm və təhsil", 2016.
15. Rüstəmova A. "Xəmsə"də alleqoriya, rəmz və simvollar. Məqalə. //Ədəbiyyat qəzeti Bakı, 1991. IX № 27.
16. Ramil Əliyev. Orta əsrlər Şərq ədəbiyyatı. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: "Elm və təhsil", 2010.
17. Siracəddin Hacı. Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanının şərhi (X-XIII) məqalələr. 8-ci kitab.
18. Siracəddin Hacı. Hz. Nizami Gəncəvinin yaradıcılığında Peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.ə.s). IV kitab.
19. Salman Mümtaz. Azərbaycan Ədəbiyyatının qaynaqları (tərtib edəni filologiya elmləri namizədi Rasim Tağıyev). Bakı: "Yazıçı", 1986.
20. Şəmil Sadiq. Ədəbiyyat. Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Abituriyentlər üçün metodik vəsait.


## Творчество Низами Гянджеви в религиозно-философско-ирфанском контексте


**Вугар Ахмед**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: vuqar.ehmed.63@mail.ru



**Резюме.** Низами Гянджеви обогатил восточное литературное мышление научными и философскими идеями и поднял свою поэзию на небывалую высоту своей универсальной и удивительной поэтической силой. Знаменитая «Хамсе» поэта-мыслителя, стоящего на высшей вершине в поисках духовных богатств человечества, заняла достойное место среди шедевров мировой литературы. В период творчества Низами Гянджеви писал лирические стихи, а позже впервые выразил в своих стихах прогрессивные социальные и философские идеи.

Его труд, основанный на священном Коране, призывает людей к прекрасной нравственности, любить Родину, жить по пути Всевышнего, жить мужественно, «пить шербет знаний» и жить с любовью к Всевышнему, пророку, Родине, земле, к людям и нации. Низами Гянджеви оставил такой след в мусульманской восточной литературе, что под его влиянием писали и творили сотни иранских и индийских поэтов. Самые известные из этих маснави – творческие произведения: «Матлаул-Анвар» Амира Хосрова Дехлеви, «Минхаджул-Абрар» Дервиша Ашрафа Марагаи, «Мажгарул-Асар» Хашеми Кирмани, «Маджмаул-Абкар» Урфи Ширази, «Манбаул-Анвар» Малика Гуми, Итаби Таклави. Это произведения Касима Асири «Риязул-анвар», Адхами «Рафигус-Салигин», Зулали «Хусни-Калусуз», Муллы Шейда «Довлати-бидар». Но на этом творцы, выросшие в литературной школе Низами, не заканчиваются. Их тысячи, и здесь сложно перечислить всех их.

По словам Низами, единственный образ жизни – это ислам, посвятить себя Всевышнему. У людей, созданных Всемогущим, не должно быть иного образа жизни, кроме ислама. Пророки, посланные руководить человечеством, всегда проповедовали исламский образ жизни.


**Ключевые слова:** Низами Гянджеви, Священный Коран, стих, газель, маснави (рифма с двумя строками)